# Respublikaçı Alternativ (REAL) partiyasının
# Proqramı

Dövlətimizin əsası Cümhuriyyət kimi qoyulmuşdur. Respublika bizim üçün xatirədən çox çağdaş prinsip və ölkəmizin gələcəyidir. Respublika bizim üçünsiyasi rəqabət və qanun əsasında vətəndaşların özlərinə hakimiyyət seçmək haqqı, bu hakimiyyətin qanunverici, icra və məhkəmə qolları arasında gerçək şəkildə bölünməsi deməkdir.

Respublikaçı Alternativ (REAL) partiyası demokratik iştirakçılıq yolu ilə vətəndaşları bu baxışdan doğan ideologiyanın hakimiyyətdə layiqincə və aparıcı mövqedə təmsil olunması uğrunda fəaliyyət göstərən, Azərbaycanda Respublikayaxas olan siyasi təməllərin möhkəmləndirilməsi məqsədilə qurulan siyasi partiyadır.

XX əsrdə sol və sağ partiyaların birgə koalisyon hökumət qurması nadir və qəribə hadisə idi. Hazırda bu, normal hal alıb, çünki ötən əsrin toqquşmaları hər hansı konkret tarixi məqamda bu yanaşmalardan hansısa birinin daha üstün və doğru olduğunu isbatlayaraq onları ideoloji düsturdan daha çox alətə çevirdi. Biz də siyasət təşəbbüslərimizdə bütün bu alətlərdən harmonik qaydada istifadə etməliyik. Ümumiyyətlə, Respublikaçı Alternativ (REAL) partiyasında öz siyasi-iqtisadi baxışlarına görə liberal, çevrəçi, milliyətçi, və digər baxışlı insanlar birləşərək Azərbaycanın indiki əsas vəzifəsini - Respublika təməllərinin möhkəmləndirilməsini yerinə yetirirlər.

I.

Qanunverici, məhkəmə və icra qolları arasında hakimiyyət bölgüsünü daim möhkəmləndirməkdən ötrü parlament və prezident seçkilərində, eləcə də məhkəmə təyinatlarında Konstitusiyada nəzərdə tutulmuş qaydada iştirak edərək, çeşidli alət, təşəbbüs və prosedurlar vasitəsilə buna nail olmaq əzmindəyik.

President və Parlament əksər məsələlərdə bərabər tərəflər kimi əməkdaşlıq edərək ölkə qarşısında duran vəzifələri həll etməyə çalışmalıdırlar. Parlamentin ən azından bir hissəsi proporsional qaydada seçilməlidir. Bir şəxs iki dəfədən çox Prezident ola bilməz.

Dürüst seçkilərin yanlış siyasi və iqtisadi nəticələrə yol açmaması üçün siyasi-ictimai qaydalar elə qurulmalıdır ki, parlament seçkisi nəticəsində təkpartiyalı hökumət yarananda Baş Nazir siyasi çəkisinə görə hakimiyyətin icra qolunun ən güclü təmsilçisi olsun.Hökumət koalision olduqda, Prezident qərarlarının və mövqeyinin siyasi önəmi daha yüksək olmalıdır.

Dünya demokratiya təcrübəsi göstərdiyi kimi, tək prezidentlər deyil, parlament kimi kollektiv qurumlar da tarixi məsuliyytətsizliklə, seçki eqoizmi ilə, iş əvəzinə söz oyunları ilə həddini aşaraq millətin həyatını iflic edə, gələcəyini təhlükə altına ata bilər. Ona görə bir tərəfdən dövlət başçısı olan Prezident, digər tərəfdən isə ali məhkəmə hakimiyyətiParlamenti məsuliyyətə məcbur edən səlahiyyətlərə sahib olmalıdır. Konstitusiya Məhkəməsinin hakimləri, öz növbəsində, Parlamentin və Prezidentin bir-biri ilə anlaşması nəticəsində ən azı

bir neçə seçki dövrünü əhatə edən müddətə təyin olunaraq öz fəaliyyətlərində Prezidentdən və Parlamentdən tam müstəqil olmalıdırlar.

II.

Naxçıvanda mövcud olan, Qarabağın dağlıq hissəsində quracağımız muxtariyyat sisteminin sərbəst, bərabər siyasi və iqtisadi rəqabət mühitində işlək olması üçün bəyan etdiyimiztəməl prinsiplər əsas götürülməlidir. Naxçıvan əhalisi ilə və onun təhlükəsizliyinin beynəlxalq təminatçısı olan Türkiyə ilə ünsiyyətdə muxtariyyatın və onun idarəçilik təcrübəsinin qanuni çərçivəsi Azərbaycanın Avropa kimliyinə uyğunlaşdırılmalıdır. Qarabağda dinc yaşayış naminə erməni və azərbaycanlı icmalarının vahid muxtar toplum halında miqyaslı səlahiyyətlər icra etməsinə hazır olmalıyıq.

Bələdiyyələr həqiqi və geniş səlahiyyət sahibinə çevrilməli, Konstitusiyada dövlət idarəetmə sisteminin tərkib hissəsi elan edilməlidir. Bələdiyyə seçkiləri parlament seçkiləri ilə oxşar qaydada keçirilməlidir, yəni həm ərazilər, həm də partiyalar bu seçkilərdə təmsil olunmalıdır.

Yaşayış məntəqəsinin əhalisi 75 mindən çox olduqda o, Böyük Şəhər statusu almalı və onun seçilmiş rəhbərliyi birbaşa mərkəzi hökumətlə işləməlidir. Hər böyük şəhərdə xalqın birbaşa seçdiyi Mer və Bələdiyyə Şurası olmalıdır.

III.

İnsan haqlarının yüksək səviyyədə qorunması Azərbaycanın dünyada ən təsirli tanınma alətlərindən biri olmalıdır. Özümüzü coğrafiyamıza görə deyil,dəyərlərimizə söykənərək qiymətləndirməliyik.Məhkəmələrin müstəqilliyi təməl prinsip kimi qorunmalı, istintaq və ittiham bir-birindən ayrılmalı, vəkillərin sərbəst fəaiyyəti təmin olunmalıdır. Toplaşmaq, birləşmək və ifadəazadlığı sahəsində həm qanunda, həm də təcrübədə geniş imkanlardan istifadə üçün şəraityaradılmalıdır.

IV.

Hələ uzun tarixi zaman ordu xalqların güvənc yeri, sonuncu və ən ağır yüklənmiş müdafiə divarı olaraq qalacaq. Ordu bizə təkcə Qarabağ siyasətimizin aləti kimi deyil, daha strateji mövcudluq məqsədlərimiz üçün lazımdır. Ordunun zəifliyi, digər amillərlə yanaşı 1920-ci ildə Cümhuriyyətin sovetləşməsinə yol açmışdı.

Ordu tədricən ən yaxın tarixi müttəfiqlərimizin yüksək standartlarınakeçirilməli və ölkəmizin ehtiyaclarına uyğun şəkildə daha da inkişaf etdirilməlidir. Əvvəlcə struktur və maddi təminat uyğunlaşdırılmalı, ikinci mərhələdə isə hərbi-texniki təchizata diqqət üstünlük təşkil etməlidir.Perspektivdə tamamilə peşəkar orduya keçidi nəzərdə tuturuq və bu işə çağırış sisteminin kökündən dəyişdirilməsi ilə başlayacayıq.

V.

Özəl  mülkiyyəti qorumaqla vərəqabətmühitinigücləndirməklə dünya bazarında satılabiləcək mal və xidmətlərin istehsalını artırıb iqtisadiyyatımızı neft asılılığından qurtara bilərik. Respublika təməllərini zəiflədən amillərdən biri bu asılılıq, ondan doğan inhisarçılıq və dövlət xərclərinin israfıdır.

Çağdaş iş adamları yaxşı anlayır ki, işçilərin yüksək həyat səviyyəsi, keyfiyyətli iş yeri, özlərinin və ailələrinin sosial təminatı cəmiyyətdəbaşqa ortam yaradaraq biznes imkanlarını əvəllər inanılmaz görünən geniş məkana çıxarır. Bu baxımdan, vətəndaşların qanuni gəlirlərinin artırılması və istehlakçı mədəniyyətini dövlət olaraq yönəltməyimiz milli kapitalın daha düzgün istifadəsinə yol açaraq Respublika təməllərinin möhkəmlənməsi məqsədinə xidmət edər.

VI.

XX əsrin birinci yarısında maarifçilik işini əsasən qura bilsək də, məktəblərimiz sonralar maarifçilik ruhunun ətalətindən çıxa bilmədi. Qlobal elmi-texniki və mədəni inqilablarda Azərbaycanın uzun illərdir daha çox istehlakçı kimi iştirak etməsinin səbəbi həm də budur. Təhsil, elm və mədəniyyət sahələrində milli fəaliyyətin vəzifəsiölkəmizə seçilmiş sahələrdə elmi-texnoloji və mədəni üstünlük qazandırmaqdır, çağdaş ictimai, mədəni və iqtisadi problemlərə cəmiyyətimizin cavab verməsini təmin etməkdir.

VII

Bu proqram istiqamətləri son nəticədə Azərbaycan vətəndaşlarının təmiz çevrədə sağlam və xoşbəxt həyat tərzi yaşaması məqsədinə xidmət edir. Respublikaçı Alternativ (REAL) partiyası bu və digər istiqamətlər üzrə detallı seçki platforması ilə çıxış edir.

Yaşasın Azərbaycan Respublikası!